# Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi xüsusi əhəmiyyət daşıyır



***Məlum olduğu kimi, bu il martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayı olmuşdur. Tədbirdə partiyanın son illər ərzində keçdiyi şərəfli yola nəzər salınmış, qarşıda duran vəzifələr müəyyən olunmuşdur.***

Qeyd etmək lazımdır ki, Yeni Azərbaycan Partiyasının milli dövlətçiliyimizin formalaşmasında danılmaz xidmətləri olmuşdur. Sirr deyil ki, bu nüfuzlu partiya ölkəmizdə ictimai-siyasi sabitliyin möhkəmlənməsinə də böyük töhfələr vermişdir. Məhz buna görə də YAP-ın xalqımızın maraqlarına xidmət edən konskruktiv fəaliyyəti cəmiyyət tərəfindən daim dəstəklənib və bundan sonra da dəstəklənəcək.

Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası (YAP) bu gün ölkəmizin ictimai-siyasi həyatının aparıcı siyasi qüvvəsi hesab olunur. Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin qurultaydakı giriş və yekun nitqləri ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələrinin nümayəndələri tərəfindən böyük maraqla qarşılanıb. Qurultayda möhtərəm Prezidentimizin dilindən səslənən parlaq, dərin məzmunlu fikir və mülahizələr hamı kimi, mənim də qəlbimdə sonsuz qürur hissləri doğurub.

Cənab İlham Əliyev partiyanın cəmiyyətdəki yeri və rolu barədə danışarkən demişdir: “Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi”.

Bəli, partiya ilk gündən qarşısında duran mühüm vəzifələrin öhdəsindən uğurla gələrək, son 30 ildə ölkəmizdə ən kütləvi siyasi quruma çevrilə bilmişdir. Fakt budur ki, YAP bu gün Cənubi Qafqaz regionunda ən böyük siyasi təşkilatdır. Partiya zamanın çağırışlarına hər bir dönəmdə olduğu kimi, bu gün də yüksək siyasi məsuliyyət hissilə, adekvat cavab verməyi bacarır, eyni zamanda ideya və məzmunca yenilənir. Məqsəd isə əvvəlki kimi, müstəqil Azərbaycan dövlətinə və xalqımıza sədaqətlə xidmət etməkdir.

Yeri gəlmişkən, partiyanın VII qurultayı bir sıra əlamətdar qərarların qəbul edilməsi ilə yadda qaldı. YAP-ın yeni Nizamnaməsinə uyğun olaraq, partiyanın Sədri cənab İlham Əliyev tərəfindən Mehriban xanım Əliyeva partiya sədrinin birinci müavini təyin edildi. Bu qərar partiyanın bütün üzvləri, bütövlükdə cəmiyyətimiz tərəfindən dərin razılıq hissi ilə qarşılandı.

YAP-ın qurultayında gözlənildiyi kimi, qarşıda duran bir çox mühüm vəzifələr müəyyənləşdirildi. Mən bu məsələlərdən biri barədə xüsusi söhbət açmaq istəyirəm. Bu, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması məsələsidir. Təsadüfi deyil ki, cənab İlham Əliyev qurultayda yekun nitqində xüsusi qeyd etdi ki, gənc nəslin milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda tərbiyə edilməsi dövlətimiz üçün xüsusi əhəmiyyət daşıyan məsələdir.

Dövlətimizin başçısı vurğuladı ki, o ölkələrdə ki, bu məsələyə fikir verilmir, həmin ölkələr vaxt keçdikcə böyük problemlərlə üzləşə bilərlər. Çünki dünyada gedən proseslər deməyə əsas verir ki, bəzi yerlərdə bu proses kortəbii şəkildə aparılır. Belə olan halda, əlbəttə, gələcəkdə - 10 ildən, 20 ildən sonra çox ciddi problemlər yaşana bilər. Əgər gənc nəsil tərbiyə edilməsə, əgər gənc nəslə ümumbəşəri dəyərlər aşılanmasa, o zaman gələcəkdə problemlər qaçılmazdır.

Fəxrlə qeyd etmək istəyirəm ki, YAP-ın Salyan rayon təşkilatı öz gündəlik fəaliyyətində gənclərin milli dövlətçiliyimizə, Vətənə sədaqət ruhunda tərbiyə olunmasına böyük önəm verir. Bəllidir ki, Azərbaycan xalqı 44 günlük şanlı Vətən müharibəsində yağı düşmən üzərində parlaq qələbə qazanaraq, ölkəmizin ərazi bütövlüyünü təmin etmişdir. Azərbaycan xalqı bu gün öz igid, qorxubilməz oğulları ilə haqlı olaraq fəxr edir. Hesab edirəm ki, indi hər bir Azərbaycan ziyalısının, eləcə də YAP fəalının ən böyük vəzifələrindən biri İkinci Qarabağ müharibəsinin qəhrəmanlarını və qazilərimizi geniş ictimaiyyətə yaxından tanıtdırmaqdır.

YAP-ın Salyan rayon təşkilatının fəalları, ziyalılar bu günlərdə tez-tez şəhid ailələri, qazilərimizlə ilə görüşürlər, onların qayğı və problemləri ilə yaxından maraqlanırlar. Yeri gəlmişkən, şəhid ailələri, qazilər bu görüşlər zamanı ölkə Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən onlara göstərilən diqqət və qayğıdan dərin razılıqlarını bildirirlər.

Bu gün ölkəmizin hər yerində əhali arasında böyük coşqu, ruh yüksəkliyi hökm sürür. İnsanlar əmindirlər ki, qarşıdakı illərdə ölkəmiz daha böyük uğurlara nail olacaq. Çünki, Vətən müharibəsindəki möhtəşəm zəfərimiz ölkəmizin hərtərəfli inkişafı və tərəqqisi üçün geniş imkanlar açmışdır. Xalqımızın sevimli lideri İlham Əliyevin müdrik rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə böyük tikinti-quruculuq, abadlıq işlərinə artıq start verilmişdir.

YAP-ın qurultayında xüsusi qeyd olundu ki, Azərbaycan dövləti Qarabağın dirçəldilməsi ilə bağlı qarşıda duran mühüm vəzifələrin öhdəsindən layiqincə gələcək. Həyat dəfələrlə sübut edib ki, çağdaş dünyanın ən görkəmli dövlət xadimlərindən olan cənab İlham Əliyevin liderliyi ilə Azərbaycan xalqı ən böyük vəzifələrin öhdəsindən layiqincə gəlməyə qadirdir.

Sonda bir daha vurğulamaq istəyirəm. Hamı kimi, mən də zərrə qədər şübhə etmirəm ki, Yeni Azərbaycan Partiyası cəmiyyətin bundan sonra da aparıcı siyasi qüvvə kimi fəaliyyət göstərəcək və ölkəmizin qarşısında duran bütün həyati əhəmiyyətli vəzifələrin yerinə yetirilməsində üzərinə düşən mühüm missiyanı uğurla davam etdirəcək.

***Razıgül DADAŞOVA,***
***YAP Salyan rayon təşkilatının Qadınlar Şurasının sədr müavini***

Xalq qəzeti 2021.- 10 mart.- S.7.